**Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin 2014-cü ildə fəaliyyətinin yekunlarına dair**
**H E S A B A T I**

2014-cü hesabat ili ərzində ölkəmizdə əqli mülkiyyət, o cümlədən qeyri-maddi mədəni irsin qorunması sahəsində qanunvericilik və idarəçilik sistemlərinin müasir tələblər nəzərə alınmaqla təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində fəaliyyət davam etdirilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsinin prioritet istiqamətlər sırasına daxil edilməsi ilə əlaqədar Konsepsiyadan irəli gələn vəzifələrin icrası üçün müvafiq tədbirlər həyata keçirilmiş, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun tətbiqi ilə bağlı bir sıra normativ hüquqi aktlar qəbul olunmuş, müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqlarının inkişafına aid Uzunmüddətli Milli Strategiyanın layihəsi təkmilləşdirilmiş, həmçinin Müəllif Hüquqları Agentliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq prioritet inkişaf sahələri üzrə tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə Strateji Plan hazırlanmışdır. Bu sənəddə dövlətin müasir tələblərinə uyğun olaraq siyasəti innovativ əsasda qurmaq, idarəetmədə yenilikçiliyə üstünlük vermək, modernləşməni adi vərdiş halına salmaq kimi pozitiv meyarlar üzərində Agentliyin transformasiyasının sürətləndirilməsi, həmçinin yeni istiqamətlər, hədəf və prioritetlər barədə müddəalar əksini tapmışdır.

Bununla yanaşı, hesabat ilində Agentliyin fəaliyyət sahəsi ilə bağlı aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilmişdir:

**1. Qanunvericilik və normativ hüquqi baza.** Müəllif Hüquqları Agentliyi öz Əsasnaməsinə uyğun olaraq 70-dən çox funksiya yerinə yetirir. Funksiyalar çərçivəsində əsas hədəflərdən biri müəllif-hüquq sahəsi üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsidir. Bu proses 2014-cü ildə uğurla davam etdirilmişdir. Həyata keçirilən tədbirlər çərçivəsində "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 668 nömrəli Fərmanına uyğun olaraq, Agentliyin təklifləri nəzərə alınmaqla "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 245 nömrəli Fərmanı imzalanmışdır. Fərmana əsasən "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 16.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinin qeyri-qanuni hazırlanmasının (istehsalının) və yayılmasının qarşısının alınması sahəsində Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, nəzarət markalarının qeyri-qanuni yayılmasının qarşısının alınması və

vergi nəzarəti zamanı Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinin pozulması ilə bağlı məsələlər üzrə Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabineti tərəfindən aşağıda göstərilən **2** yeni qərar qəbul olunmuşdur:

1. "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 191 nömrəli Qərarı;

2. "Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 iyul tarixli 214 nömrəli Qərarı.

2014-cü il 14 may tarixində "Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır. Anlaşma Memorandumu Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 611 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Müəllif-hüquq qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn vəzifələrin Agentlik üzrə icrasının təmin edilməsi məqsədi ilə konkret tədbirləri əhatə edən İş planı tərtib edilmiş və xüsusi işçi qrup yaradılmışdır. İnkişaf Konsepsiyasına prioritet sahə kimi daxil edilmiş əqli mülkiyyətə dair 8 tədbirin, o cümlədən müəllif-hüquq məsələləri və qeyri-maddi irsin qorunması üzrə tədbirlərin həyata keçirilməsi ilə bağlı fəaliyyət davam etdirilmişdir.

Ümumilikdə İnkişaf Konsepsiyası çərçivəsində Agentlik tərəfindən "Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə, 2 qanun, 1 strategiya, 1 konsepsiya, 2 dövlət proqramı, 1 tədbirlər planı və Nazirlər Kabinetinin 8 qərar layihələrinin hazırlanması nəzərdə tutulmuşdur. Hesabat dövründə həmin məsələlərin hər biri üzrə Agentliyin səlahiyyətləri daxilində ilkin layihələr hazırlanmış, aidiyyəti dövlət orqanları, həmçinin ictimai birliklər, eləcə də digər müvafiq qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr aparılmışdır.

Tədbirlər çərçivəsində İnkişaf Konsepsiyasının 4-cü bölməsinin ("Yüksək rəqabət qabiliyyətli iqtisadiyyata doğru") müddəalarından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədi ilə "Müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) iqtisadiyyatda payının hesablanması və əqli mülkiyyət aktivlərinin qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin Qərar layihəsi Azərbaycan Respublikası Prezidenti Administrasiyası tərəfindən verilmiş məcburi hüquqi ekspertizanın rəyi nəzərə alınmaqla yenidən işlənmiş, sənədə müəllif-hüquq sisteminin müasir inkişaf meylləri nəzərə alınmaqla bir sıra əlavələr və dəyişikliklər edilmiş və aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq yekun variantı Nazirlər Kabinetinə təqdim edilmişdir.

İnkişaf Konsepsiyasının 10-cu bölməsinin (“Mədəni irsin qorunması və səmərəli idarə edilməsi”nə dair) müddəalarından irəli gələn Agentliyə aid vəzifələrin icrasını təmin etmək məqsədi ilə “Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, qeydiyyatı Qaydaları”nın layihəsi hazırlanmışdır. Qərar layihəsi Azərbaycan Respublikası Prezidentinin 14 may 2014-cü il 162 nömrəli Fərmanının 1.4-cü bəndinə əsasən yenidən işlənilərək Milli Fəaliyyət Qrupuna təqdim olunmuşdur.

Bundan başqa, İnkişaf Konsepsiyasının 6-cı bölməsinin (“İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi”) müddəalarından irəli gələn Agentliyə aid vəzifələrin icrasını təmin etmək məqsədi ilə “Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar əqli mülkiyyət hüquqları obyektlərinin elektron ticarətinin tənzimlənməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin Qərar layihəsi yenidən işlənərək, aidiyyəti dövlət qurumları ilə razılaşdırıldıqdan sonra Milli Fəaliyyət Qrupuna təqdim olunmuşdur.

“Normativ-hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələblərinə uyğun qaydada, İnkişaf Konsepsiyası çərçivəsində nəzərdə tutulan aşağıda göstərilən 3 sənədin layihələri üzərində işlər yekunlaşdırılıb və onlar Milli Fəaliyyət Qrupuna təqdim ediləcəkdir:

- “Əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklər (təşkilatlar) haqqında” Qanun layihəsi;
- “Əqli mülkiyyətə dair Milli Strategiya (2014-2020);
- “Müəllif-hüquq lisenziyaları ilə təmin olunan açıq təhsil resurslarının yaradılmasına dair Konsepsiya”.

İnkişaf Konsepsiyası çərçivəsində qəbul edilməsi nəzərdə tutulan digər sənədlərin, o cümlədən “Ümumi Daxili Məhsulda müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) rolunun artırılması sahəsində 2015-2018-ci illər üçün Dövlət Proqramı”, “Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar əqli mülkiyyət hüquqlarının inkişafı üzrə 2014-2016-ci illər üçün Dövlət Proqramı”, “Rəqəmli hüquqların idarə edilməsi üzrə “on-line” lisenziyalaşmaya və “one-stop-shops” formatında xidmətlərin göstərilməsinə dair Tədbirlər Planı (2014-2020)”, “Müəlliflik hüququ və əlaqəli hüquqların pozulması ilə əlaqədar iddianın məbləğinin müəyyən edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli qərarına dəyişikliklər edilməsi barədə” Nazirlər Kabinetinin Qərar layihələri üzərində hazırda iş aparılır və onların növbəti illərdə Milli Fəaliyyət Qrupuna təqdim edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, hesabat ili ərzində MDB ölkələri ilə ikitərəfli hökumətlərarası əməkdaşlığın gücləndirilməsi məqsədi ilə aşağıda adları göstərilən Saziş layihələri hazırlanmış və aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq müvafiq qaydada təqdim olunmuşdur:

- “Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş” layihəsi;

- “Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Saziş” layihəsi;

- “Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş” layihəsi;

- “Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi ilə Özbəkistan Respublikası İntellektual Mülkiyyət Agentliyi arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlığın qaydaları və şərtləri haqqında Protokol” layihəsi.

**2. Əsərlərin və digər əqli mülkiyyət obyektlərinin qeydiyyatı.** Azərbaycan MDB məkanında əsərlərin könüllü qeydiyyat sistemini tətbiq edən ilk ölkələrdən biridir. Ölkəmizdə əsərlərin qeydiyyat sisteminin tətbiqinə 1996-cı ilin 12 mart tarixindən başlanılmışdır. 1996-cı ildən indiyədək Agentlikdə **10** minə yaxın əsər və əlaqəli hüquqların obyektləri qeydiyyatdan keçirilmişdir. Agentliyin “Qeydiyyat” elektron məlumat bazasında qeydiyyatdan keçirilmiş əsərlər və onların müəllifləri (hüquq sahibləri) barədə müvafiq məlumatlar yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 2011-ci il 23 may tarixli Fərmanından irəli gələn aidiyyəti vəzifələrin icrasını təmin etmək məqsədi ilə Agentliyin rəsmi internet saytında yaradılmış xüsusi “Elektron xidmət” bölməsi vasitəsi ilə il ərzində əsərlərin elektron qeydiyyatı aparılmış, indiyədək ümumilikdə elektron qaydada **35** müəllifin **57** əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **57** şəhadətnamə verilmişdir.

Həmçinin “Elektron xidmət” bölməsində elektron qaydada aparılması nəzərdə tutulan xidmətlər üçün inzibati reqlamentlər, ərizə nümunələri və müvafiq izahlar yerləşdirilmişdir. Bu da imkan verir ki, müəllif (hüquq sahibi) “Elektron xidmət” bölməsinə daxil olmaqla, Agentliyə gəlmədən əsərini elektron qaydada qeydiyyatdan keçirə bilsin. Bu üsulla əsərlərin qeydiyyatının üstünlükləri barədə müəlliflər və hüquq sahibləri arasında maarifləndirmə işləri davam etdirilmiş, nəticədə hesabat dövründə elektron qaydada qeydiyyatdan keçirilmiş əsərlərin sayı ötən iki ilə nisbətən xeyli artmışdır. Müqayisə üçün qeyd edək ki, 2012-ci ildə 5 müəllif müraciəti əsasında 7 əsər qeydiyyatdan keçirilmiş və onların qeydiyyatı haqqında 7 şəhadətnamə, 2013-cü ildə 13 müəllif müraciəti əsasında 21 əsər qeydiyyatdan keçirilmiş və 21 şəhadətnamə verilmişdirsə, yalnız 2014-cü ildə 19 müəllif müraciəti əsasında 29 əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 29 şəhadətnamə verilmişdir.

Hesabat dövründə **192** müəllifin **508** əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **494** Şəhadətnamə verilmişdir.

**1996-2014-cü illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə)**
**(on-line qeydiyyat daxil olmaqla)**




Musiqili – 31,22%
Ədəbi, o cümlədən kompüter proqramı – 25,46%
Elmi və tədris – 19,13 %
Dizayn və dekorativ – 8,17%
Toplular – 3,57%
Multimedia əsərləri – 0,87%
Fonoqramlar və yayım təşkilatlarının verilişləri - 0,41%
Məlumat bazaları – 0,11%
Audiovizual – 5,13%
Qalanları – 5,89%

***Qeyd:*** *Qeydiyyatdan keçirilmiş obyektlər %-lə (1996-2014-cü illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı – 9641), o cümlədən 2014-cü ildə qeydiyyatdan keçirilmiş əsərlərin sayı -508*

“Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Qanunun tətbiqinə başlanıldıqdan sonra müəlliflik hüququ və əlaqəli hüquq obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılan nəzarət markalarının verilməsi prosedurunun elektron qaydada həyata keçirilməsi və həmin nüsxələr barədə elektron məlumat bankının formalaşdırılması üçün zəruri təşkilati və texniki işlər başa çatdırılmışdır.

**3. Əqli mülkiyyətin iqtisadi inkişafın vacib alətinə çevrilməsi.** Ölkənin Ümumi Daxili Məhsulunda (ÜDM) müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan kreativ sənayenin payı davamlı olaraq artmaqdadır. Müəllif Hüquqları Agentliyində aparılan araşdırlmalar göstərir ki, bu ilk növbədə son illər Azərbaycanda kreativ sənayenin inkişaf templəri ilə əlaqədardır. Hesabat dövründə müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan milli iqtisadiyyat sahələri üzrə faktiki statistik göstəricilər və dövlət büdcəsi rəqəmləri toplanaraq təhlil edilmiş, bu sahələrdə istehsalın həcmi müəyyən edildikdən sonra onların ölkə üzrə ÜDM-də xüsusi çəkisi hesablanmışdır. 2013-cü ildə Azərbaycanda müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan sahələrdə istehsalın həcmi 2768,8 mln. manat təşkil etmişdir ki, bu da ölkənin ÜDM-ində müəlliflik hüququ

və əlaqəli hüquqlara əsaslanan sənayenin payının 4,8% olması deməkdir. Bu isə 2007-ci illə müqayisədə 1,6% çoxdur.

**ÜDM-də KREATİV SƏNAYENİN XÜSUSİ ÇƏKİSİ**




**Qeyd:** 2014-cü il 1 yanvara olan vəziyyətə görə

Ölkəmizin ÜDM-ində kreativ sənayenin davamlı şəkildə artması həyata keçirilən çoxşaxəli iqtisadi islahatların uğurlu nəticələri ilə bağlıdır. Bu nəticələr beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. Belə ki, BMT-nin insan potensialının inkişafı ilə bağlı hesabatına görə, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü davamlı inkişaf "Azərbaycan modeli" əsasında ölkəmiz artıq 2010-cu ildən "orta" səviyyəli dövlətlər sırasından çıxmış və "yüksək" insan potensialı inkişafını təmin edən ölkələr qrupuna daxil olmuşdur. "Azərbaycan modeli" yeni uğurlara zəmin yaradan İKT-nin inkişafına əsaslanan modeldir.

Dünya İqtisadi Forumunun 2013-2014-cü illər üçün "Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmiz rəqabətqabiliyyətlilik indeksinə görə dünyada 39-cu, MDB məkanında isə 1-ci yerdədir. Əqli mülkiyyətin qorunmasında Azərbaycan institutları MDB məkanında 69-cu yeri tutaraq, Qazaxıstanı 4 pillə, Rusiyanı 44 pillə və Ukraynanı 64 pillə üstələyir. Ümumiyyətlə, son illərin hesabatlarında Azərbaycan əqli mülkiyyət sahəsində Cənubi Qafqazda ən qabaqcıl dövlət kimi göstərilir. Ölkəmiz bu sahədə Şərqi Avropanın bir sıra dövlətlərindən (Polşa, Çernoqoriya, Xorvatiya, Bolqarıstan, Rumıniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina) irəlidədir və güclü inkişafda olan Hindistan və Braziliyanı üstələyir.

Digər komponentlərlə yanaşı, əqli mülkiyyətin qorunmasını dolayısı yolla əks etdirən innovasiyalar göstəricisinə əsasən, Azərbaycan 51-ci yeri tutaraq, MDB dövlətləri arasında birincidir.

Müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan kreativ sənayenin əhəmiyyətinin davamlı olaraq artmasını nəzərə alaraq, hazırda Agentlikdə "Ümumi Daxili Məhsulda müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) rolunun artırılması sahəsində 2015-2018-ci illər üçün Dövlət Proqramı"nın layihəsi hazırlanır. Layihə çərçivəsində: a) kreativ sənaye sahələrində yaradıcılığa dəstək üçün şəraitin yaradılması; b) ənənəvi mədəniyyət təsisatlarının fəaliyyətinin modernləşdirilməsi və genişləndirilməsi; c) mədəniyyət və yaradıcılıq sektorlarında istehlak mallarının və xidmətlərinin spektrinin genişləndirilməsi; d) mədəni-yaradıcılıq proseslərinə (incəsənət),

mediaya rəqəmsal texnologiyaların tətbiqində yardım; e) İçərişəhər və Lahıc kimi "kreativ (mədəni) klasterlər" (ərazilər) formalaşdırılması; f) kreativ sənaye sferasına daxil olan bütün istehsal sahələrinin inkişafına yardım nəzərdə tutulur.

**4. Hüquqların təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.** Ölkəmiz piratçılığa qarşı beynəlxalq səviyyədə mübarizənin fəal iştirakçılarından biridir. Piratçılığın səviyyəsinin azaldılması istiqamətində görülən tədbirlər müsbət nəticələr verir: kitab nəşri sahəsində piratçılığın səviyyəsi 2005-ci illə müqayisədə 61%-dən 30%-ə, audio-video məhsul bazarında 90%-dən 66%-ə, proqram təminatında 96%-dən 85%-ə düşmüşdür. Bu rəqəmlər Müəllif Hüquqları Agentliyi, eləcə də Beynəlxalq Biznes Proqram Təminatı Alyansı (Buisness Software Alyans) tərəfindən aparılan monitorinq-müşahidələr nəticəsində müəyyən edilmişdir.

Ölkəmizdə piratçılığın səviyyəsi 2005-ci illə müqayisədə 2014-cü ildə aşağıdakı kimi olmuşdur:




Ölkədəki piratçılığın səviyyəsinin aşağı salınması, həmçinin piratçılığın qarşısının alınması istiqamətlərində aidiyyəti dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə birlikdə tədbirlər davam etdirilir. Bu çərçivədə proqram təminatının qanunsuz yayımını həyata keçirən hüquqi və fiziki şəxslərin müəyyənləşdirilməsi və lazımi tədbirlərin görülməsi məqsədi ilə hesabat ilində Müəllif Hüquqları Agentliyinin, Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin və "Microsoft"un Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının birgə iştirakı ilə Bakı şəhərindəki kompüter satışı mağazalarında monitorinq aparılmışdır.

Piratçılıqla mübarizənin gücləndirilməsi və hüquqların təminatı sahəsində işlərin səmərəsinin artırılması məqsədi ilə ilk dəfə olaraq Agentlikdə müəllif-hüquq obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılan nəzarət markalarının fərdiləşdirilməsi üzrə elektron Smart sistemi yaradılmış, nəzarət markası yapışdırılan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin nüsxələrinin orijinallığını Smart tipli mobil telefon vasitəsi ilə müəyyən edən "Track & Trace" sistemi (nəzarət markalarının və nüsxələrin qanuniliyinin "izlənməsi" sistemi) quraşdırılmışdır.

Müəlliflərin, hüquq sahiblərinin, mütəxəssislərin, tədqiqatçı alimlərin və tələbələrin əqli mülkiyyət sahəsində biliklərinin artırılması məqsədi ilə ilk dəfə olaraq Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində interaktiv Təlim-Tədris Smart-klass fəaliyyətə başlamış və burada əqli mülkiyyət sahəsi üçün mütəxəssislərin hazırlanmasına start verilmiş, məşğələlərin keçirilməsinə başlanmışdır.

Agentlikdə 960 nömrəli "Qaynar xətt" və ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" hüquq sahiblərinin istifadəsindədir. Hesabat dövründə 1200-dən artıq müəllifin, digər hüquq sahiblərinin, ictimai birliklərin nümayəndələrinin və müəllif-hüquq məsələləri ilə maraqlanan şəxslərin Agentliyə müraciət və sorğuları operativ şəkildə cavablandırılmış, Agentliyin səlahiyyətləri çərçivəsində müvafiq köməklik göstərilmişdir.

2014-cü ildə müəlliflər və hüquq sahiblərinin müraciətləri üzrə iddia ərizələri tərtib edilmiş və tərtib edilməsində kömək göstərilmiş, dövlət və məhkəmə orqanlarının sorğuları əsasında müəllif-hüquq məsələləri ilə bağlı 10 ekspert rəyi hazırlanmışdır.




Hesabat ilində ənənəvi olaraq, əqli mülkiyyət sahəsində maarifləndirmə və məlumatlandırma işlərinə xüsusi diqqət yetirilmiş, əqli mülkiyyət obyektlərindən istifadəyə dair hüquqların həyata keçirilməsi ilə bağlı fiziki və hüquqi şəxslərə müəllif-hüquq qanunvericiliyinin izah edilməsi və onların hüquqi maarifləndirilməsi üzrə iş aparılmış, istifadəçi-hüquq sahibi arasındakı münasibətlərin tənzimlənməsi, pozulmuş hüquqların bərpası və s. məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

Agentliyin təşkilatçılığı və ya iştirakı ilə 9 beynəlxalq və milli konfrans keçirilmiş, KİV-lərdə 80-dən çox məqalə və müsahibə dərc olunmuş, TV və radio kanallarında çoxsaylı verilişlər və süjetlər göstərilmiş, Agentliyin təşkil etdiyi tədbirlərdə ölkəmizi və digər dünya dövlətlərini və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, tarixçilər və qeyri-

hökumət təşkilatlarının nümayəndələri tərəfindən 30-a yaxın prezentasiya və məruzə edilmişdir.

120-dən artıq maarifləndirici material: kitablar, broşuralar, bukletlər, o cümlədən “Əqli mülkiyyət çıxış və prezentasiyalarda” 2 cildlik toplu, “Əqli mülkiyyət hüquqları (məqalələr toplusu), “Əqli mülkiyyət hüquqları (1-ci cild)” kitabları, müəllif-hüquq sahəsi üzrə 7 beynəlxalq konvensiya, müqavilə və sazişlər, qanunlar, digər normativ hüquqi aktlar çap edilmiş, keçirilən tədbirlərdə təbliğat vasitəsi kimi paylanmışdır. Smart-klass üçün Agentliyin sədri K.İmanovun prezentasiyaları əsasında elektron və çap variantında “Müəlliflik hüququ və əlaqəli hüquqlar” və “Rəqəmsal iqtisadiyyatda əqli mülkiyyət” adlı iki dərs vəsaiti, həmçinin “Əqli Mülkiyyət Hüquqlarının Təminatı”, “Müəlliflik hüququ” və “Müəlliflik hüququnun tarixi” adlı multimedia dərs vəsaitləri buraxılmış, belə materiallardan ibarət xüsusi sərgi hazırlanmışdır.




2014-cü ildə Agentliyin təşkilatçılığı ilə keçirilmiş aşağıdakı tədbirləri qeyd etmək olar:

1) 2014-cü ilin 20 fevral tarixində Müəllif Hüquqları Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT-nin) birgə təşkilatçılığı ilə keçirilmiş “İnternetdə müəllif hüquqları: perspektivlər və problemlər” mövzusunda beynəlxalq seminar;

2) 2014-cü ilin 23 aprel tarixində keçirilmiş “Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” münasibətilə “Mədəni irsin qorunması və erməni saxtakarlıqları” mövzusunda konfrans;

3) 2014-cü ilin 26 aprel tarixində keçirilmiş “Beynəlxalq Əqli Mülkiyyət Günü” münasibətilə “Azərbaycan 2020: Gələcəyə baxış. Əqli mülkiyyətin sənayenin inkişafındakı rolu” mövzusunda konfrans;

4) 2014-cü il 8-9 iyul tarixlərində keçirilmiş Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzinin, YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin birgə təşkilatçılığı ilə "Davamlı inkişaf mədəniyyəti: universal və milli dəyərlərin qarşılıqlı əlaqəsi" mövzusunda IV Beynəlxalq elmi konfrans;

5) 2014-cü ilin 1 dekabr tarixində keçirilmiş Müəllif Hüquqları Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT-nin) birgə təşkilatçılığı ilə "Görmə qüsurlu şəxslərin dərc olunmuş əsərlərə əlçatımlığının müəllif-hüquq problemləri" mövzusunda beynəlxalq konfrans;

6) 2014-cü ilin 24-25 dekabr tarixlərində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Müəllif Hüquqları Agentliyi, İqtisadiyyat və Sənaye Nazirliyi və Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilmiş "I Respublika Əqli Mülkiyyət və İnnovasiya Sərgisi ".

**5. Erməni plagiatçılığına qarşı mübarizə.** Xalqımızın ənənəvi mədəni nümunələrinin (folklor nümunələrinin) və ənənəvi biliklərinin sistemli şəkildə öyrənilərək hüquqi qorunması, daim mədəni irsimizə göz dikən ermənilərin plagiatçılıq fəaliyyətinin ifşa edilməsi istiqamətlərində Agentlik tərəfindən 2014-cü ildə bir sıra tədbirlər təşkil edilmişdir. Bu çərçivədə 2014-cü ilin aprel ayında Müəllif Hüquqları Agentliyinin təşkilatçılığı ilə keçirilmiş "Mədəni irsin qorunması və erməni saxtakarlıqları" mövzusunda konfransda Agentliyin, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun, Bakı Dövlət Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının İnsan hüquqları və Konfliktologiya İnstitutunun və digər elmi müəssisələrin tanınmış alimlərinin və mütəxəssislərin erməni saxtakarlıqlarını ifşa edən məruzələri dinlənilmiş, mövzu ətrafında müzakirələr olmuşdur. Tədbir Azərbaycan, ingilis və rus dillərində on-line rejimdə İnternetdə yayımlanmışdır.

Hesabat ilinin aprel ayında keçirilmiş "Beynəlxalq Abidələr və Tarixi Yerlər günü"nə həsr olunmuş "İçərişəhərin dünya əhəmiyyətli abidələri" mövzusunda daha bir konfransda Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov "Xunsar-Günzar (Qız Qalası) – Günəş-Asərə həsr olunmuş Ümumqafqaz fenomeni" adlı prezentasiyasında mövzunun mahiyyəti ilə yanaşı, həmin dövrə və abidəyə aid erməni saxtakarlıqlarını elmi tarixi faktlarla ifşa etmişdir. İyun ayında isə Bakıda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında Qafqaz Albaniyasının tarixi və mədəni irsinin öyrənilməsi və qorunmasına dair bəndin icrası ilə əlaqədar nəzərdə tutulan tədbirlər çərçivəsində Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının Konfliktologiya və İnsan Hüquqları İnstitutunun və Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyasının birgə təşkilatçılığı ilə keçirilmiş "İnsan hüquqları kontekstində Qafqaz Albaniyası etnoslarının tarixi və mədəni irsi" mövzusunda Beynəlxalq konfransın plenar iclasında Agentliyin sədri Kamran İmanov mövzuya dair geniş məruzə ilə çıxış edərək Azərbaycan ərazisinin işğal altında olan hissəsində qalan qədim Qafqaz Albaniyası torpaqlarındakı mədəni irsimizin maddi və qeyri-maddi nümunələrinin Ermənistan tərəfindən talan və məhv edilməsi faktları, bunun nəticələri, həmçinin buradakı mədəni irs nümunələrimizin xilas edilməsi istiqamətində aparılan işlər barədə danışmış, Qafqaz Albaniyasının mədəni irsinin məhz Azərbaycan xalqına məxsus olmasının elmi əsaslarını vermişdir.

Erməni saxtakarlıqlarını ifşa edən "Erməni yadelli nağılları" (müəllif Kamran İmanov) kitabı və "Gəldim, gördüm..., mənimsədim" kitabçası il ərzində

keçirilmiş tədbirlərdə Azərbaycan, rus, ingilis və fransız dillərində xarici qonaqlara, nümayəndələrə və tədbirlər zamanı tədbir iştirakçılarına paylanmış, Xarici İşlər Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin köməyi ilə yayılmış, elektron versiyası müxtəlif informasiya agentliklərinin saytlarında yerləşdirilmişdir. İnformasiya agentlikləri, yayım kanalları və digər KİV-lər vasitəsi ilə erməni iddialarını ifşa edən çoxsaylı materiallar yayılmış, folklor nümunələrimizin və müəllif əsərlərimizin ermənilər tərəfindən oğurlanması faktları barədə ÜƏMT-ə, YUNESKO-ya və digər beynəlxalq təşkilatlara məlumat və etiraz məktubları göndərilmiş, erməni uydurmalarının ifşasına həsr edilmiş "Erməni tarixi uydurmalarının tarixinə giriş" adlı daha bir kitab (müəllif Kamran İmanov) çapa hazırlanmışdır.

Eyni zamanda Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktoru Frensis Qarrinin Azərbaycana rəsmi səfəri çərçivəsində keçirilən görüşlər zamanı Ermənistanın işğalçı siyasəti barədə qonağa məlumat verilmiş və bu siyasətin nəticəsində Azərbaycanın 20 faiz ərazisinin işğal edildiyi, bir milyondan artıq insanın qaçqın və məcburi köçkünə çevrildiyi, işğal altında olan ərazilərdə mədəniyyət abidələrinin, muzeylərin, kitabxanaların, məktəblərin ermənilər tərəfindən məhv edildiyini qonağın diqqətinə çatdırılmışdır.

Qeyri-maddi irsin, o cümlədən onun tərkib hissəsi olan ənənəvi biliklərin və Azərbaycana məxsus mətbəx nümunələrinin hüquqi qorunması ilə bağlı məsələlərə dair Agentlik tərəfindən hazırlanmış "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması və qeydiyyatı qaydalarının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərar layihəsi yenidən işlənərək və aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq, Milli Fəaliyyət Qrupuna təqdim edilmişdir. Bu sənədin hazırlanmasında məqsəd ənənəvi mədəni nümunələrin və ənənəvi biliklərin hər bir növünün xalqa məxsus olan mülkiyyət kimi qorunub-saxlanmasını, onların xüsusən ermənilər tərəfindən oğurlanaraq mənimsənilməsi və özününküləşdirilməsi hallarının qarşısının alınmasını təmin edən hüquqi qorunma rejimini yaratmaqdan ibarətdir.

Hesabat ilində milli irsimizin ermənilər tərəfindən oğurlanması cəhdlərinin qarşısının alınması istiqamətində iş davam etdirilmiş, Üzeyir Hacıbəyovun məşhur mahnılarından biri olan sözləri Əhməd Cavada məxsus "Çırpınırdı Qara dəniz" mahnısının erməniləşdirilməsi və Sayat Novaya aid edilməsi cəhdinin qarşısı alınmışdır.

Məsələ ilə əlaqədar Müəllif Hüquqları Agentliyində elmi şərh hazırlanmış, Türkiyənin müvafiq dövlət qurumlarına müraciət göndərilərək ermənilərin bu iddialarının əsassızlığını sübut edən dəlillər təqdim edilmişdir. Agentliyin bununla bağlı şərhində qeyd olunmuşdur ki, Sayat Novanın yaradıcılığı ilə bağlı aparılan təhlil göstərir ki, onun əsərlərinin siyahısında "Çırpınırdı Qara dəniz" adlı şeirə rast gəlmək mümkün deyil. Bundan başqa, 1982-ci ildə "Sovetskiy pisatel" nəşriyyatının Leninqrad bölməsində nəşr olunmuş "Sayat Nova. Şeirlər" kitabında Sayat Novanın bu adda və ya oxşar məzmunda şeiri yoxdur. Mətbuatda olan məlumata əsasən, Sayat Novanın yazdığı "Kamança" şeiri guya onun sevimli aləti olan kamançaya həsr edilmiş, eyni zamanda kamança "erməni musiqi aləti" kimi

təqdim edilmişdir. Sayat Novanın “Kamança” şeirinin Valeriy Bryusov tərəfindən rus dilinə tərcümə olunmuş mətni ilə Əhməd Cavadın yazdığı “Çırpınırdı Qara dəniz” mahnısının məzmununun müqayisəsi göstərmişdir ki, onlar tamamilə fərqli məzmuna malikdir.

Agentliyin şərhində daha sonra qeyd edilmişdir ki, “Çırpınırdı Qara dəniz” şeiri 1914-cü ildə Əhməd Cavad tərəfindən Gəncə şəhərində yazılmış və onun 20-ci illərə qədər çıxmış kitablarına daxil edilmiş, 1918-ci ildə isə Üzeyir Hacıbəyov bu şeirə musiqi bəstələmiş və həmin mahnı bir çox tədbirlərdə ifa edilmişdir. Mahnı müəlliflərin pantürkçülükdə ittiham oluna biləcəyi səbəbinə görə, 1920-ci ildən 1991-ci ilə qədər Sovet ideologiyasının hökm sürdüyü dövrdə Azərbaycanda səsləndirilməmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu möhtəşəm mahnı ictimaiyyat qarşısında 1993-cü il martın 10-da Bakıda Respublika sarayında Əhməd Cavadın anadan olmasının 100 illik yubiley gecəsində səsləndirildi və qısa müddətdə geniş yayılaraq bütün Türk dünyasının sevimli mahnısına çevrildi. Bununla yanaşı, bir çox nəşriyyatlarda, o cümlədən “Azərbaycan” nəşriyyatı, “Musiqi dünyası” jurnalı, həmçinin elektron ensiklopediyalarda bu mahnının məhz Ü. Hacıbəyov tərəfindən yazıldığına dair faktlar bəllidir. Elmi şərhdə həmçinin kamançanın azərbaycanlılara məxsus olduğunu dəfələrlə etiraf edən ermənilərdən istinadlar gətirilərək bu iddianın da absurd olduğu sübut edilmişdir.

Erməni oğurluqları ilə bağlı daha bir fakt sözləri Mikayıl Müşfiqə, musiqisi Ələkbər Tağıyevə məxsus “Sənə qurban” mahnısı olmuşdur . Agentlik tərəfindən aparılan araşdırmalar nəticəsində aşkar edilib ki, A.Madadyanın ifa etdiyi “Garun” (“Bahar”) mahnısının melodiyası ilə “Sənə qurban” mahnısının melodiyası üst-üstə düşür. Müəyyən edilmişdir ki, mahnının sözlərini M.Müşfiq 1937-ci ildə yazıb, mahnını ilk dəfə 1968-ci ildə Azərbaycanın xalq artisti Zeynəb Xanlarova ifa edib. 1978-ci ilin 10 iyun tarixində Müəllif Hüquqları Agentliyində (həmin dövrdə Ümumittifaq Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublika şöbəsi adlanırdı) bəstəkar Ə.Tağıyevin “Sənə qurban” mahnısı (sözlərin müəllifi Mikayıl Müşfiq) qeydiyyata alınıb. Faktla bağlı müvafiq tədbirlər görülmüşdür.

Bununla yanaşı, milli mətbəximizə aid lavaşın YUNESKO-nun Mədəni irs siyahısına erməni çörəyi kimi daxil edilməsi cəhdinin qarşısının alınması işinə dəstək verilmiş, bununla bağlı mətbuatda müvafiq şərh verilmişdir.

Yerli KİV-lər və yayım kanalları vasitəsi ilə ermənilər tərəfindən mütəmadi olaraq erməni nümunələri kimi qələmə verilən və ya ifa edilən Azərbaycan xalq mahnıları, xalq rəqsləri və dastanlarımız, o cümlədən “Dədə Qorqud” qəhrəmanlıq dastanı, milli musiqi alətlərimiz və milli mətbəx nümunələrimizin etimologiyası, yaranma tarixi, milli xüsusiyyətləri barədə şərhlər, bəyanatlar və etirazlar bildirilmiş, eyni zamanda milli musiqi alətlərimizin təbliği və tanıdılması məqsədi ilə onların bir qisminin miniatür formaları hazırlanaraq beynəlxalq təşkilatların nümayəndələrinə verilmişdir.

Agentliyin əməkdaşlarının iştirak etdikləri beynəlxalq tədbirlərdə erməni oğurluqları barədə geniş məlumat verilir, həmçinin erməni plagiatını ifşa edən materiallar, xüsusən Heydər Əliyev Fondu tərəfindən hazırlanmış dərin məzmunlu

zəngin təbliğat materialları yayılır, Azərbaycanın zəngin mədəni irsinin erməni plagiatına məruz qalması barədə geniş məlumat verilir.

Hazırda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"na uyğun olaraq, maddi mədəni irsin tərkib hissələrinin qorunub saxlanılması, bu sahədə qanunsuz mənimsənilmələrin və əsassız itkilərin qarşısının alınması, folklor nümunələrinin və ənənəvi biliklərin YUNESKO-nun xüsusi qorunma siyahısına daxil edilməsi üçün əlavə tədbirlər həyata keçirilir. Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub-saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər əqli mülkiyyət nümunələrinin mərkəzləşmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin aidiyyəti qurumları ilə mübadiləsi təmin ediləcəkdir. Bununla əlaqədar Agentlikdə bir sıra texniki və təşkilati tədbirlər həyata keçirilmişdir.

**6. İKT və Elektron xidmətlər.** Müasir dövrdə İnternet əqli mülkiyyət obyektlərinin virtual bazarına çevrilməsi və elektron ticarət qaydada satılan hər 4 maldan 3-nün müəlliflik hüququnun obyekti olması elektron ticarətdə müəlliflik hüququ və əlaqəli hüquqlarla qorunan obyektlərin müstəsna əhəmiyyətə malik olduğunu göstərir. İnformasiya-kommunikasiya texnologiyaları obyektlərinin əksəriyyəti əqli mülkiyyət hüquqları ilə qorunur. Bu faktor informasiya cəmiyyətinin formalaşmasında böyük əhəmiyyətə malikdir. İKT obyektlərinin (kompüter proqramları, məlumat topluları, inteqral sxem topologiyaları, biznes layihələri, elmi nəticələr və s.) elektron ticarətdə fəal iştirakı nəzərə alınaraq hesabat dövründə qeyd edilən məsələlərə xüsusi diqqət yetirilmişdir. Bununla yanaşı, müasir rəqəmli texnologiyaların tətbiq olunması, multimedia məhsullarının yayılması və əqli mülkiyyət obyektlərinin İnternetdə rəqəmli formada geniş istifadəsi də həmin obyektlərin qeydiyyatının aparılmasını və rəqəmli şəbəkələrdə əmlak hüquqlarının idarə edilməsini zəruri amilə çevirmişdir.

Bunlar nəzərə alınmaqla ilk dəfə olaraq Agentlikdə müəllif-hüquq obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılan nəzarət markalarının fərdiləşdirilməsi və nəzarət markası yapışdırılan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin nüsxələrinin orijinallığını müəyyən edən elektron Smart sistemi yaradılmış, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun tətbiqi ilə əlaqədar, on-line lisenziyalaşmaya və "one-stop-shops" formatında xidmətlərin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sistemi (DRM) qurulmuş, pərakəndə satışda yayılan əsərlərə, fonoqramlara, audiovizual əsərlərə və tərkibində əqli mülkiyyət olan digər mallara rəqəmsal kodların verilməsi, həmin obyektlərin elektron qeydiyyatının aparılması, müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan mallara yapışdırılmaq üçün nəzarət markalarının alınmasına sifarişin elektron üsulla verilməsi və s. elektron xidmətlərin yaradılması üzrə işlər yekunlaşdırma mərhələsindədir. Həmin işlərin həyata keçirilməsi Agentliyin tabeliyində fəaliyyət göstərən Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi

tərəfindən təmin olunur. Artıq bununla bağlı müvafiq texniki və normativ hüquqi baza və idarəetmə mexanizmləri yaradılmışdır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn aidiyyəti vəzifələrin icrasının təmin edilməsi məqsədi hazırda əsərlərin və qeyri-maddi irsin, o cümlədən folklor nümunələrinin kontentinin milli Reyestrinin, həmçinin müəllif-hüquq lisenziyaları ilə təmin olunan açıq təhsil resurslarının yaradılması üzərində iş aparılır.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanının aidiyyəti üzrə icrası ilə əlaqədar onun müvafiq bəndlərinin müddəalarından irəli gələn daimi xarakterli vəzifələr Müəllif Hüquqları Agentliyi tərəfindən yerinə yetirilir.

Hesabat ilində Agentliyin **www.**copag.gov.az saytında təkmilləşdirmə işləri davam etdirilmiş və o, yeni tələblərə uyğunlaşdırılmış, elektron xidmətlər göstərilməsi üçün Elektron xidmət bölməsindən istifadə asanlaşdırılmış, fiziki və hüquqi şəxslərin on-line müraciətləri və müraciətlərin elektron poçt vasitəsi ilə cavablandırılması, sənədlərin daxili elektron dövriyyəsi, əsərlərin qeydiyyatına görə on-line ödəniş sistemi təmin edilmiş, Agentlik Elektron Hökumətin Dövlət İnformasiya Sisteminə (EHDİS) qoşulmuşdur. Digər dövlət orqanları ilə mübadilə üçün nəzərdə tutulan "Qeydiyyat" elektron məlumat bazası yeni texniki tələblər və proqram təminatı nəzərə alınmaqla tamamilə yenidən yaradılmış və hazırda onun "Elektron hökumət" portalına inteqrasiyası, həmçinin "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrası ilə əlaqədar yeni elektron xidmətlərin yaradılması üzrə tədbirlər davam etdirilir və bu işlər yekunlaşdırma mərhələsindədir.

İl ərzində Agentliyin Elektron xidmətlər bölməsinə 72 müraciət daxil olmuş, 19 müəllifin 29 əsəri elektron qeydiyyatdan keçirilmiş və 29 Qeydiyyat haqqında Şəhadətnamə göndərilmişdir.

Dünyada əqli mülkiyyət sahəsi ilə bağlı proseslərin öyrənilməsi və diqqətdə saxlanması məqsədi ilə Azərbaycanın İnternet məkanında yerləşən və rəsmi qeydiyyatdan keçmiş veb-saytlarda, həmçinin xarici saytlarda əqli mülkiyyət sahəsi ilə bağlı materiallar müntəzəm olaraq izlənmiş, lazımi materialların surətləri çıxarılaraq işdə istifadə üçün Agentliyin aidiyyəti struktur bölmələrinə təqdim edilmiş, əqli mülkiyyətlə bağlı elektron informasiya bazası yaradılmışdır.

Elektron imzanın və elektron sənədin istifadəsi, onların elektron sənəd dövriyyəsində tətbiq edilməsi və digər tədbirlərin həyata keçirilməsini reallaşdırmaq məqsədi ilə "Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Agentliyin əlavə olaraq daha 2 əməkdaşına Milli Sertifikat Xidmətləri Mərkəzindən elektron imza sertifikatının alınması təmin edilmişdir.

Eyni zamanda elektron xidmətlərin göstərilməsini təmin edən İT infrastrukturunun mövcud tələblərə uyğunlaşdırılması, o cümlədən kompüter parkının və digər elektron avadanlıqların saz vəziyyətdə saxlanması, proqram və texniki nasazlıqlarının aradan qaldırılması, yeni alınmış avadanlıqların zəruri

proqram təminatı ilə təchiz olunması və işlək vəziyyətə gətirilməsi, elektron xidmətlərin göstərildiyi avadanlıqların yanğından mühafizə sisteminin yaradılması, temperaturun müvafiq avadanlıqla tənzimlənməsi, rütubət, toz, hava axını üzrə monitorinq və siqnalizasiya sisteminin qurulması ilə bağlı işlər həyata keçirilir.

**7. Azərbaycan Respublikası Prezidentinin "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci ilər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci ilər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamından irəli gələn vəzifələrin icrası.** Hesabat ilində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamından irəli gələn vəzifələrin Müəllif Hüquqları Agentliyi üzrə icrası ilə bağlı Agentlik üzrə təsdiq edilmiş "Tədbirlər planı"na uyğun olaraq:

1) Agentliyin fəaliyyəti barədə məlumatlar və illik hesabat internet səhifəsində yerləşdirilir, Agentliyin fəaliyyətini tənzimləyən qanunvericilik aktları mütəmadi olaraq nəfis şəkildə nəşr edilir, bələdçi qaydalar tərtib edilir və vətəndaşlar arasında təşviq edilməsi istiqamətində tədbirlər görülür; Agentliyin fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, Agentliyin göstərdiyi elektron xidmətlərin təkmilləşdirilməsi, Açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmə və əməkdaşlığın həyata keçirilməsi üzrə müvafiq tədbirlər həyata keçirilir.

2) "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci ilər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Agentlik üzrə təsdiq edilmiş "Tədbirlər planı"na uyğun olaraq:

Agentliyin rəhbərliyi tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa qəbulu aparılır, eyni zamanda hesabat ili ərzində Agentlikdə ərizə və şikayətlərin elektron qaydada qəbulu və rəsmi cavablandırılması işinin təkmilləşdirilməsi üzrə işlər davam etdirilmiş, Agentliyin informasiya sistemləri, məlumat bazaları və reyestrlərindən qanunvericiliklə müəyyən edilmiş qaydada, real vaxt rejimində istifadənin təmin edilməsi üzrə tədbirlər görülmüş, dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsi və peşəkarlığının artırılması, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin korrupsiyaya qarşı mübarizə üzrə təlim və bu məsələlərlə əlaqədar tədris proqramlarının (etik davranış, maraqlar toqquşması, informasiya azadlığı və s.) təşkili üzrə il ərzində müvafiq tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, etik davranış qaydalarının təkmilləşdirilməsi, dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsi, korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə işlərinin təşkili üçün müvafiq işlər görülür.

**8. Beynəlxalq əməkdaşlıq.** Hesabat ilində Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsində beynəlxalq öhdəliklərindən, o cümlədən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) inzibati idarəçiliyində olan müəllif hüquqları və əlaqəli hüquqlar sahəsində beynəlxalq müqavilə və sazişlərindən və "Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan, həmçinin YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində geniş beynəlxalq əməkdaşlıq aparılmış, ölkəmiz ÜƏMT-nin rəhbər orqanlarında, o cümlədən onun fəaliyyətinin həyata keçirilməsində xüsusi rola malik olan Koordinasiya Komitəsində, həmçinin Proqram və Büdcə Komitəsində, Agentliyin sədri cənab Kamran İmanov ÜƏMT-nin Müəllif Hüququna dair Müqaviləsinin Assambleyasının sədri vəzifəsində təmsil olunmuşdur.

İi ərzində ÜƏMT ilə əməkdaşlıq çərçivəsində Bakıda 2 beynəlxalq konfrans təşkil edilmiş, Agentliyin nümayəndələri ÜƏMT-nin Baş Assambleyasının iclaslarında, ÜƏMT-nin Əqli Mülkiyyət, Genetik Resurslar, Ənənəvi Biliklər və Folklor üzrə Hökumətlərarası Komitəsinin, Müəllif Hüququ və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin, Əqli Mülkiyyət və İnkişaf üzrə Komitəsinin sessiyalarında, ÜƏMT çərçivəsində təmsil olunduğumuz Regional qrupun iclaslarında və digər tədbirlərdə fəal iştirak etmişlər.

ÜƏMT ilə fəal əməkdaşlığın nəticəsi olaraq 2014-cü ilin 13-15 may tarixlərində Təşkilatın Baş direktoru Dr. Frensis Qarri Azərbaycana rəsmi səfər etmişdir. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Frensis Qarrini qəbul etmişdir. Görüşdə dövlətimizin başçısı Bakının gündən-günə inkişaf etdiyini, onun siyasi, iqtisadi və digər mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir mərkəzə çevrildiyini vurğulamış, ÜƏMT ilə Azərbaycan Hökuməti arasında əməkdaşlığın daim yüksələn xətlə inkişaf etdiyi qeyd olunmuşdur. F. Qarri Bakının gözəl şəhər olduğunu məmnunluqla qeyd etmiş, Azərbaycanın müvafiq qurumları ilə ÜƏMT arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu və ölkəmizdə əqli mülkiyyət sahəsinin inkişafına göstərilən diqqətdən məmnun qaldığını bildirmişdir. Görüşdə həmçinin ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində mayın 14-də Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev ilə ÜƏMT-nin Baş direktoru cənab Frensis Qarrinin görüşü olmuşdur. Cənab Elçin Əfəndiyev Frensis Qarrinin bu səfərinin ölkəmiz ilə ÜƏMT arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini diqqətə çatdırmış, Azərbaycan və ÜƏMT arasında sıx tərəfdaşlığın və ölkəmizdə bütün sahələrdə müəllif hüquqlarının qorunması baxımından keyfiyyətli fəaliyyətin mövcud olduğunu vurğulamış, həmçinin Ermənistanın işğalçılıq siyasətinin nəticələri barədə qonağa məlumat vermişdir. Frensis Qarri yenidən ÜƏMT-nin Baş direktoru seçilməsində Azərbaycanın ona verdiyi dəstəyə görə minnətdarlığını bildirmiş, ÜƏMT ilə Azərbaycan arasında sıx əməkdaşlığın olduğunu və Azərbaycanın həmişə təşkilatın işində fəal iştirak etdiyini vurğulamış, Dağlıq

Qarabağ probleminin ağır nəticələrinin olduğunu və Təşkilat tərəfindən Azərbaycan müəlliflərinin hüquqlarının qorunması üçün müəyyən işlərin görüldüyünü diqqətə çatdırmışdır.

Səfər çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır. Anlaşma Memorandumu Baş nazirin müavini Elçin Əfəndiyev və ÜƏMT-nin Baş direktoru Frensis Qarri imzalamışlar.

2014-cü il mayın 15-də ÜƏMT-nin Baş direktoru Frensis Qarri ölkəmizə səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) olmuşdur. Görüşdə DİA-nın rektoru akademik Urxan Ələkbərov Azərbaycan Respublikası və ÜƏMT arasında əlaqələrin möhkəmlənməsində müstəsna xidmətlərinə, dünyada əqli mülkiyyətin qorunmasındakı səmərəli fəaliyyətinə, beynəlxalq arenada dostluq münasibətlərinin möhkəmləndirilməsi və inkişafına verdiyi töhfələrə görə Dövlət İdarəçilik Akademiyasının Elmi Şurasının cənab Frensis Qarriyə DİA-nın Fəxri doktoru adının verilməsi barədə qəbul etdiyi qərar barədə məlumat vermiş və DİA-nın Fəxri doktoru diplomu, xatirə medalı, mantiya və hədiyyələr cənab Frensis Qarriyə təqdim olunmuşdur. Elə həmin gün cənab Frensis Qarrinin Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini cənab M.Məmməd-Quliyevlə görüşü olmuş, əqli mülkiyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

ÜƏMT-nin Baş direktoru Frensis Qarrinin ölkəmizə səfəri çərçivəsində keçirilən görüşlərin və müzakirələrin nəticəsi olaraq Müəllif Hüquqları Agentliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən birgə "Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun həyata keçirilməsi ilə bağlı 2014-2017-ci illər üzrə Fəaliyyət Planı" hazırlanmış və işçi qaydada ÜƏMT ilə razılaşdırılmış, bu çərçivədə 2014-cü ilin dekabr ayında Müəllif Hüquqları Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə "Görmə qüsurlu şəxslərin dərc olunmuş əsərlərə əlçatımlığının müəllif-hüquq problemləri" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Qeyd olunan konfransda Nazirlər Kabinetinin, bir sıra nazirlik, komitə və digər dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, kitabxanaların, nəşriyyatların və ictimai təşkilatların təmsilçiləri, ÜƏMT-nin və Ümumdünya Korlar Cəmiyyətinin nümayəndələri çıxış edərək, gözdən əlillər üçün informasiya əlçatımlığının təmin edilməsi problemlərinə toxunmuş, bu sahədə görülən işlər barədə məlumat vermişlər. Daha sonra "Mərakeş müqaviləsinin təhlili", "Korların və digər görmə qüsurlu əlillərin cəmiyyətə sosial inteqrasiyası", "Milli qanunvericiliklərdə görmə qüsurlu şəxslər üçün məhdudiyyətlər və istisnalar" və digər mövzularda məruzələr dinlənilmişdir. Tədbirdə iştirak edən beynəlxalq təşkilatların nümayəndələri ölkəmizdə bu sahədə aparılan işləri yüksək qiymətləndirmiş, bundan sonra da gözdən əlillərin problemlərinin həlli istiqamətində görülən işlərin davam etdiriləcəyinə əminliklərini bildirmişlər

2014-cü ilin 22-30 sentyabr tarixlərində İsveçrənin Cenevrə şəhərində ÜƏMT-nin Üzv dövlətlərinin Baş Assambleyasının 54-cü sessiyası keçirilmişdir. Həmin toplantıda Müəllif Hüquqları Agentliyinin nümayəndə heyəti iştirak etmişdir.

Səfər çərçivəsində sentyabrın 25-də Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri cənab Ramiz Həsənov, Müəllif Hüquqları Agentliyinin sədri cənab Kamran İmanov, Komitənin və Agentliyin əməkdaşları və Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin əməkdaşının daxil olduğu Azərbaycan nümayəndə heyəti ilə ÜƏMT-nin Baş direktoru cənab F.Qarrinin görüşü keçirilmişdir. Görüş zamanı ölkəmizdə əqli mülkiyyət sahəsində görülən işlər barədə məlumat verilmiş, ölkəmizlə sıx əməkdaşlığına görə ona minnətdarlıq ifadə edilmişdir. Cənab F.Qarri ölkəmizdə əqli mülkiyyət sahəsində görülmüş işləri və əldə olunmuş nəticələri yüksək dəyərləndirərək, qarşılıqlı əməkdaşlığın bundan sonra da yüksələn xətlə davam edəcəyinə əminlik hissini ifadə etmişdir.

Bununla yanaşı, Baş Assambleyanın keçirildiyi günlərdə ÜƏMT-nin Keçid iqtisadiyyatlı və inkişaf etmiş ölkələr üzrə Departamentində "Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun icrasına dair Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı müzakirələr keçirildi. Eyni zamanda ölkəmizin daxil olduğu Regional qrup çərçivəsində üzv-ölkələrin nümayəndələri ilə keçirilmiş görüşlərdə əqli mülkiyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Ənənəvi olaraq 2014-cü ildə də YUNESKO-nun elan etdiyi 23 aprel - «Ümumdünya Kitab və Müəllif Hüququ Günü» və ÜƏMT-nin elan etdiyi 26 aprel - «Beynəlxalq Əqli Mülkiyyət Günü» ölkəmizdə təntənəli şəkildə qeyd olunmuşdur. "Dünya kinematoqrafının kultu" devizi altında keçirilən bu ilki tədbirlər kino sənayesinin inkişafına yönəldilmiş və bu əlamətdar günlərlə əlaqədar Müəllif Hüquqları Agentliyi tərəfindən təsdiq edilmiş Tədbirlər planı əsasında geniş tərkibli tədbirlər təşkil edilmişdir. Belə tədbirlərin keçirilməsində məqsəd kitabların insan həyatındakı böyük əhəmiyyətini vurğulamaq, müəlliflik hüququnun mədəni irsin yaranmasında və qorunub saxlanmasındakı rolunu göstərmək və davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı əhəmiyyətini diqqətə çatdırmaq, əqli mülkiyyətin yaradıcılarına olan hörmət və ehtiramı nümayiş etdirmək, diqqəti mədəni irsin və adət-ənənələrimizin qorunub saxlanmasına yönəltməkdir. 2014-cü ildə bu çərçivədə təşkil olunan tədbirlərin coğrafiyası genişlənmiş, respublikamızın bir sıra şəhər və rayonlarını da əhatə etmişdir.

Bu çərçivədə Müəllif Hüquqları Agentliyi tərəfindən aprelin 23-də təşkil olunmuş "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"nə həsr olunan "Mədəni irsin qorunması və erməni saxtakarlıqları" mövzusunda ilk konfransda mədəni irsimizin qorunması, mədəni mübadilə və erməni saxtakarlıqlarına aid məsələlər geniş müzakirə olunmuşdur.

Aprelin 26-da - “Beynəlxalq Əqli Mülkiyyət Günü”ndə keçirilmiş “Azərbaycan 2020: Gələcəyə baxış. Əqli mülkiyyətin sənayenin inkişafındakı rolu” mövzusunda konfrans isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2014-cü ilin “Sənaye ili” elan edilməsi ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə əməkdaşlıqda təşkil olunmuşdur. Bir sıra nazirlik, komitə və digər dövlət qurumlarının nümayəndələri, millət vəkilləri, tanınmış elm xadimləri, mütəxəssislər, müəlliflər və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin qatıldığı bu konfransda əqli mülkiyyətin inkişafının yaxın gələcək üçün müəyyən edilmiş hədəfləri və perspektivləri, həmçinin əqli mülkiyyətin müasir iqtisadiyyatda əhəmiyyəti və sənayenin inkişafındakı rolu, müəlliflik hüququna əsaslanan kreativ industriyanın inkişafı məsələləri işıqlandırılmışdır.

Bayram tədbirləri çərçivəsində ÜƏMT-nin Baş direktoru cənab F. Qarrinin “Beynəlxalq Əqli Mülkiyyət Günü” və YUNESKO-nun Baş katibi xanım İ. Bokovanın “Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” münasibəti ilə müraciətləri Azərbaycan dilinə tərcümə edilərək yayılmışdır.

Bəlli olduğu kimi, son illər Azərbaycan bir sıra iri beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Hesabat ilinin aprel ayında “Beynəlxalq Abidələr və Tarixi Yerlər günü”nə həsr olunmuş “İçərişəhərin dünya əhəmiyyətli abidələri” mövzusunda konfransda, iyun ayında isə Bakıda “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında Qafqaz Albaniyasının tarixi və mədəni irsinin öyrənilməsi və qorunmasına dair bəndin icrası ilə əlaqədar nəzərdə tutulan tədbirlər çərçivəsində Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının Konfliktologiya və İnsan Hüquqları İnstitutunun və Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyasının birgə təşkilatçılığı ilə keçirilmiş “İnsan hüquqları kontekstində Qafqaz Albaniyası etnoslarının tarixi və mədəni irsi” mövzusunda Beynəlxalq konfransda Agentliyin nümayəndəsi mövzuya dair geniş prezentasiyalarla çıxış etmiş və tarixi abidələrin, o cümlədən Azərbaycan xalqına məxsus abidələrin ümumbəşəri irs nümunələri kimi qorunması, bu cür mədəni irsin məhv edilməsi cəhdlərinin qarşısının alınmasında ümumi səylərin birləşdirilməsi vacibliyini bir daha nəzərə çatdırmışdır.

Hesabat ilinin 4-5 iyul tarixlərində Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi çərçivəsində “Mədəniyyət və rəqəmsallaşmanın mübadiləsi üzrə birinci platforma - Bakı konfransı”nda Müəllif Hüquqları Agentliyinin sədri K.İmanov “Mədəni irsin rəqəmləşdirilməsi və rəqəmli müəlliflik hüququnda tənzimləmə modeli” mövzusunda çıxış edərək mədəniyyətin rəqəmləşdirilməsi ilə bağlı əqli mülkiyyətdə, müəllif-hüquq sahəsində yaranan problemlər və bu sahədə baş verən yeni tendensiyalar barədə fikirlərini bildirmişdir.

2014-cü il 7-9 iyul tarixlərində Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzinin, YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin birgə təşkilatçılığı ilə keçirilmiş “Davamlı inkişaf

mədəniyyəti: universal və milli dəyərlərin qarşılıqlı əlaqəsi" mövzusunda IV Beynəlxalq elmi konfrans da geniş rezonans doğurmuş tədbirlərdən biridir. Konfrans Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, YUNESKO məsələləri üzrə Rusiya Federasiyası Komissiyası, "BMESU" Akademiyasının Qloballaşma və Davamlı İnkişaf İnstitutu, Cənubi Rusiya Qeyri-Hökumət Ali Məsələlər Assosiasiyası tərəfindən dəstəklənmiş və həmin təşkilatların nümayəndələri tədbirdə iştirak və çıxış etmişlər. Konfransda 14 ölkədən 25-dən çox nüfuzlu alim və mütəxəssis iştirak etmişlər.

Hesabat ilində Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə birgə əməkdaşlıqda təşkil olunmuş daha bir tədbir 20 fevral 2014-cü il tarixdə keçirilmiş "Müəlliflik hüququ və İnternet: perspektivlər və problemlər" mövzusunda beynəlxalq seminar olmuşdur. Seminarda dövlət qurumlarının nümayəndələri, millət vəkilləri, elmi ictimaiyyətin təmsilçiləri və qeyri-hökumət təşkilatlarının, həmçinin beynəlxalq təşkilatların və xarici ölkələrin nümayəndələri, o cümlədən ÜƏMT-nin Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələri üzrə Bölmənin rəhbəri Saule Tlevlessova, Mərkəzi və Şərqi Avropanın Müəlliflik Hüququ Alyansının sədri doktor Mihaly Ficsor, Beynəlxalq Ticarət Mərkəzinin bölmə müdiri cənab Maksim Prokş iştirak etmişlər. Tədbir on-line rejimdə İnternetdə yayımlanmışdır.

Hesabat ilində ÜƏMT-nin "Audiovizual ifalar haqqında Pekin müqaviləsi" və "Dərc olunmuş əsərlərə kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatımlığı asanlaşdırmağa dair Mərakeş Müqaviləsi"nin mətnləri ingilis dilindən Azərbaycan dilinə tərcümə olunaraq Xarici İşlər Nazirliyində təsdiq edilmişdir. Hazırda həmin müqavilələrə qoşulmaqla əlaqədar sənədlərin hazırlanması üzrə iş başa çatdırılmış və həmin sənədlər müvafiq qaydada təqdim ediləcəkdir.

Həmçinin "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi ilə Özbəkistan Respublikası İntellektual Mülkiyyət Agentliyi arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlığın qaydaları və şərtləri haqqında Protokol" layihələri tərcümə olunaraq müvafiq qaydada təqdim edilmişdir.

**9. Kollektiv idarəetmə sahəsində aparılan işlər.** 2014-cü ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına, o cümlədən "Azərbaycan müəllifləri" İctimai Birliyinə və "Kinorejissorlar Gildiyası"na hər cür metodiki və hüquqi yardım göstərilmiş, kollektiv idarəetmə sahəsi Müəllif Hüquqları Agentliyinin fəaliyyətində diqqət mərkəzində saxlanmışdır.

Bununla yanaşı, kollektiv idarəetmə təşkilatları ilə əhatə olunmayan sahələrdə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi və istifadəyə görə onlar üçün qonorar yığılması işi təşkil olunmuş, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi, kollektiv idarəetmə təşkilatları ilə dövlət orqanları arasında əlaqələrin inkişafı, müəllif-hüquq subyekti kimi onların fəaliyyətinə dövlət nəzarətinin formaları və hüquqi əsaslarının təkmilləşdirilməsi istiqamətlərində fəaliyyət davam etdirilmişdir.

**Müəllif qonorarı.** 2014-cü ildə müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində 95377 manat müəllif qonorarı yığılmış, qonorar hesablanmış yerli və xarici müəlliflərin adları, soyadları, təxəllüsü və mənsub olduqları ölkələr barədə məlumatların dəqiqləşdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır.

Agentliyin bank hesabına köçürülmüş 88168 manat müəllif qonorarının təyinatı üzrə bölgüsü aparılmış, köçürmə yolu ilə cəmi 67335 manat müəllif qonorarı ödənilmiş, büdcəyə 13800 manat vəsait köçürülmüşdür.

**Son illərdə xidmət edilən müəlliflərin sayı müqayisə ilə aşağıdakı kimidir:**

| İllər | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| Xidmət edilən müəlliflərin sayı, o cümlədən: | 3717 | 2972 | 3170 | 3188 | 3190 | 3200 |
| Azərbaycan müəllifləri | 2872 | 2161 | 2294 | 2304 | 2306 | 2310 |
| Xarici ölkə müəllifləri | 845 | 811 | 876 | 884 | 884 | 890 |

**Son illərdə qonorar hesablanması aşağıdakı kimi olub (manatla):**

| İllər | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 (11 ayda) |
|---|---|---|---|---|---|---|
| Ümumi qonorar yığımı, o cümlədən: | 57914 | 82392 | 120598 | 112177 | 101518 | 95377 |
| Azərbaycan müəlliflərinə | 47930 | 68684 | 102899 | 103354 | 88732 | 86186 |
| Xarici ölkə müəlliflərinə | 6621 | 9455 | 15039 | 7288 | 12136 | 9191 |
| Dövlət Büdcəsinə (qorunmayan əsərlərə görə qonorar) | 6118 | 4253 | 2660 | 1534 | 574 | - |

2014-cü ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda - Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır. Göstərilən dövr ərzində əsərlərdən istifadəyə görə qonorar ödəməyən, həmçinin qonorar üzrə borc qalıqları olan teatr-konsert müəssisələri ilə əlaqə saxlanmış, müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının miqdarı dəqiqləşdirilmişdir.

2014-cü ilin statistik göstəriciləri qonorarın məbləğinin və qonorar hesablanmış müəlliflərin sayının artdığını göstərir. Hesablanmış qonorar barədə 296 nəfər müəllifin müraciətlərinə baxılmış müvafiq izahatlar verilmişdir.

Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə olunması və qarşılıqlı yardım göstərilməsi sahəsində Müəllif Hüquqları Agentliyi və Rusiya Müəllif Cəmiyyəti arasında bağlanmış sazişin müddəalarına uyğun olaraq müəlliflərin qonorarının qarşılıqlı hesablaşma hesabına köçürülməsi yönümündə danışıqlar aparılmışdır.

Milli səviyyədə fəaliyyəti Agentlik tərəfindən koordinasiya edilən "Azərbaycan müəllifləri" İctimai Birliyi və "Kinorejissorlar Gildiyası" 2014-cü ildə müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyi nəticəsində müvafiq olaraq 40834 manat və 62458 manat müəllif qonorarı yığmışlar.

**10. Kadrların peşəkarlığının artırılması, vətəndaşların qəbulu və kargüzarlığın təşkili.**

1) Hesabat ilində Müəllif Hüquqları Agentliyində kadrlarla iş və dövlət qulluğuna qəbul "Dövlət qulluğu haqqında" Qanuna və onun tətbiqi ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların, həmçinin Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə qəbulla bağlı prosedurlar Əmək Məcəlləsinin tələblərinə uyğun aparılmış, kadr resurslarının möhkəmləndirilməsi, mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətlərində ardıcıl tədbirlər həyata keçirilmişdir. 1 nəfər ÜƏMT Akademiyasının və Turin Universitetinin "Əqli mülkiyyət hüquqları"na dair Magistr proqramı üzrə təlim kursunu, 1 nəfər Harvard Universitetinin Müəllif hüququ kursunu bitirmiş, 3 nəfər Avropa İttifaqı məsələləri ilə bağlı "ADA" Universitetinin Avropa Mərkəzi üzrə Mərkəzi və Avropa Kolleci tərəfindən təşkil olunan "Təlimçilər üçün Təlim" (ToT) proqramında iştirak edərək müvafiq Sertifikat almışlar. Həmçinin əməkdaşlar ÜƏMT və ÜTT-nin əqli mülkiyyətin müxtəlif sahələri üzrə məsafədən təhsil Proqramlarında məsafədən təhsil kurslarında iştirak edilmişlər.

Hesabat dövründə Agentliyin Aparatına 1 nəfər, Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə isə 3 nəfər işə qəbul edilmiş, Agentliyin Aparatından 1 nəfər öz xahişi ilə işdən azad olunmuş, 12 nəfərə ixtisas dərəcəsi verilmişdir.

2) Hesabat dövründə Kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş

“Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”a uyğun aparılmışdır. Agentlik üzrə əmr layihələrinin hazırlanmasına, imzalanmış əmrlərin təyinatı və aidiyyəti üzrə çatdırılmasına və icrasına nəzarət təmin edilmişdir.

2014-cü ildə Müəllif Hüquqları Agentliyinə 975 sənəd daxil olmuşdur. Onlardan 27 sənəd Azərbaycan Respublikasının Prezidenti Administrasiyasından, 1 sənəd Milli Məclisdən, 125 sənəd Nazirlər Kabinetindən, 5 sənəd Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilindən, 12 sənəd Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyasından, 180 sənəd nazirlik və komitələrdən, 22 sənəd digər dövlət orqanlarından, 87 sənəd hüquqi şəxslərdən, 82 sənəd fiziki şəxslərdən, 11 sənəd ictimai birliklərdən, 85 sənəd xarici ölkələrdən, 338 sənəd isə bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı daxil olmuşdur.

Sənədlərin Agentlikdə hərəkəti, təşkilata daxil olduğu andan icra edildiyi və göndərildiyi anadək, onların dövriyyəsi və icrasına ciddi riayət olunmuşdur.

Hesabat dövründə Agentlikdən 537 sənəd göndərilmişdir. Onlardan 11 sənəd Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, 67 sənəd Nazirlər Kabinetinə, 3 sənəd Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə, 5 sənəd Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya, 163 sənəd nazirlik və komitələrə, 12 sənəd digər dövlət orqanlarına, 131 sənəd hüquqi şəxslərə, 88 sənəd fiziki şəxslərə, 5 sənəd ictimai birliklərə, 52 sənəd isə xarici ölkələrə göndərilmişdir.

Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 52 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları”na uyğun həyata keçirilmişdir.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş vətəndaşların problemlərinin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür. Eyni zamanda 2015-ci il üçün vətəndaşların qəbulu qrafiki Agentlik sədrinin müvafiq əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə göndərilmişdir.

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 381 müraciət (onlardan 48-si elektron qaydada), 8 müraciət isə aidiyyəti üzrə baxılmaq üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi 389). Müraciətlərin 288-i müsbət, 8-i qismən həll edilmiş, 56-na müvafiq izahat verilmiş, 3-ü baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilmiş, 2-si məlumat xarakterli olduğundan nəzərə alınmış, 23-ü əsassız sayılmış, 9-u hal-hazırda icradadır.

Vətəndaşların müraciətlərinə baxılmasının nəticəsi barədə məlumat və bu sahədə görülən işlər haqqında qısa arayış hər il müvafiq qaydada Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına göndərilmişdir.

**11. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.** 2014-cü il üçün Agentliyin saxlanması üçün dövlət büdcəsinə 616497 manat vəsait nəzərdə tutulmuşdur. Nəzərdə tutulmuş illik smeta xərclərinə uyğun olaraq bu vəsaitin 429345 manatı əmək ödənişlərinə (o cümlədən, 342255 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 4992 manat ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, 82098 manat sair pul ödənişlərinə) 94456 manat DSMF-na ayırmalara, 92696 manat vəsait Agentliyin saxlanması üçün digər maddələr üzrə xərclənmişdir.

2014-cü ilin Dövlət büdcəsində əqli mülkiyyət hüquqlarının qorunmasına və təmin edilməsi məqsədləri üçün ayrılmış 304932 manat vəsaitdən 37488 manatı Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçilərinin əmək haqqının ödənilməsinə, 11042 manat DSMF-na, 13820 manat əməyin ödənilməsi ilə bağlı sair pul ödənişlərinə sərf olunmuşdur.

Hesabat ilində sair xərclər maddəsi üzrə: Nəzarət markalarına görə 35998 manat, "DRM-RHQŞİES" layihəsinin yaradılmasına 23600 manat, Tədris proqramının qurulması və sazlanmasına 20400 manat, server və digər maşın və avadanlığın alınmasına, saxlanmasına və təmirinə 31131 manat, icarə haqqına 15938 manat, tədbirlərin təşkilinə 46513 manat, inventar və avadanlığın alınmasına 5083 manat, serverlərə xidmətə görə 8496 manat, xidmət haqları və s. xərclənmişdir.

Bir çox spesifik mühasibat sənədlərinin yeni formaları (öhdəlik sənədi, mal (iş və xidmətlərin) alış sənədi, kassa və qonorar xərclərinin sifarişi, əmək haqqının hesablanması, əmək haqqının ödəniş cədvəli, əmək haqqının və qonorarın Visa elektron kart vasitəsi ilə verilməsi, qonorarın ödəniş cədvəli, rüblük ümumi əməliyyatlar, dövriyyə balansı, kassa əməliyyatları, bank büdcə əməliyyatları, bank qonorar əməliyyatları) tətbiq edilir və elektron qaydada göndərilir.

Agentlik üzrə vergi hesabatları Nazirlər Kabinetinin 2007-ci il 27 iyul tarixli 120 №-li qərarı ilə təsdiq edilmiş "Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi Qaydası"na uyğun olaraq elektron sənəd formasında təqdim olunmuşdur.

15.01.2015